# UNİVERSİTET XƏBƏRLƏRİ




### "XƏZƏR"İN KOLLEKTİVİ "ŞƏHİDLƏR XİYABANI"NI ZİYARƏT ETDİ



Yanvarın 19-da Xəzər Universitetinin kollektivi 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş ümummilli Anım Mərasiminə qatılmaq üçün universitetin əsas binasında toplaşaraq, avtobuslarla "Şəhidlər Xiyabanı"na doğru hərəkət etdilər. "Şəhidlər xiyabanı"nda onlar şəhidlərin xatirəsini yad edib, kompleksin önünə əklil qoydular. Anım mərasimində tələbələr, universitetin rəhbərliyi, dekanlar və departament müdirləri, digər əməkdaşlar iştirak etdilər. İngilis dili departamentinin müdiri Kalvin Tiesen Azərbaycan dövlət televiziyasına müsahibə verdi.

Sonda "Şəhidlər Kompleksi" önündə xatirə şəkilləri çəkildi.

### 20 YANVAR FACİƏSİ HEÇ VAXT UNUDULMAYACAQ

20 Yanvar hadisəsindən 23 il ötsə də, xalqımız bu faciəni heç vaxt unutmur və şəhidlərimizin xatirəsi hər il yad edilir. Yanvarın 18-də Xəzər Universitetində də Tarix və Arxeologiya departamentinin təşkilatçılığı ilə tarix və coğrafiya ixtisası üzrə təhsil alan I-III kurs tələbələri tədbir təşkil edərək, 20 yanvar gecəsində xalqımızın başına gələn dəhşətləri videoçarxlar vasitəsilə bir daha izlədilər. Kadrlara baxdıqdan sonra tələbələr faciə ilə bağlı fikirlərini bölüşdülər.



Tədbirdən sonra universitet tələbələri arasında 20 Yanvar faciəsi haqqında sosioloji sorğu keçirildi

### TƏLƏBƏLƏR ARASINDA 20 YANVAR FACİƏSİ İLƏ BAĞLI SORĞU

Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş 1990-cı il yanvarın 20-də ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkar hərəkətlərindən və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənən, Bakının küçələrinə və meydanlarına çıxaraq buna öz qəti etirazını bildirən geniş xalq kütlələrinə qarşı Sovet ordusunun döyüş hissələrinin yeridilməsi Azərbaycanda misli görünməmiş faciəyə gətirib çıxardı. Həmin faciəli günlərdə öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar.

Bu il 20 Yanvar faciəsindən 23 il ötür. Lakin xalqımız bu dəhşətli günü hələ də unutmayıb və heç vaxt da unutmayacaq.

20 Yanvar faciəsinin anım mərasimində Xəzər Universitetində tələbələr arasında sosioloji sorğu aparılıb və bu faciə ilə bağlı tələbələrə aşağıdakı suallar verilib:

1. *20 Yanvar hadisələri milli istiqlal ideyasını möhkəmləndirdimi?*
2. *20 Yanvar hadisələri Sovet imperiyasının dağılmasına təkan oldumu?*
3. *20 Yanvar hadisələri xalqın özünəinamını azaltdımı?*
4. *Fikrinizcə, 20 Yanvar hadisələrinə matəm günü kimi yanaşmaq doğrudurmu?*
5. *Fikrinizcə, 20 Yanvar hadisələri xalqın qəhrəmanlıq səhifəsidirmi?*
6. *20 Yanvar hadisələrini millətin acizliyi kimi qələmə vermək olarmı?*
7. *Bu hadisə ümummilli hadisə kimi dəyərləndirilirmi?*
8. *Xalqımıza qarşı belə təcavüz yenə baş verə bilərmi?*

Cavablar isə "bəli", "xeyr", "bilmirəm" və tələbələrin öz fikirlərini qeyd etməsi olub.

**Birinci** sualın cavabında 79% səs çoxluğu ilə "bəli", yəni "bu hadisə milli istiqlal ideyasını möhkəmləndirdi" cavabı üstünlük qazanıb. 11% "xeyr", 4% "bilmirəm", 6% tələbə isə öz fikrini yazıb.

**İkinci** sualın cavabında 68% "bəli", 20% "xeyr", 4% "bilmirəm", 8% isə öz fikrini yazıb.

**Üçüncü** sualda 2% "bəli", 90% "xeyr", 8% isə öz fikrini yazıb.

**Dördüncü** sualda 72% "bəli", 10% faiz "xeyr", 18% isə öz fikrini yazıb.

**Beşinci** sualda 91% "bəli", 1% xeyr, 8% isə öz fikirlərini yazıblar.

**Altıncı** sualda 9% bəli, 82% xeyr, 4% bilmirəm, 5% tələbə öz fikrini yazaraq sualı cavablandırıblar.

**Yeddinci** sualda isə 73% bəli, 12% "xeyr", 7% "bilmirəm", 8% isə öz fikrini yazıb.

**Səkkizinci** sualda 23% "bəli", 32% "xeyr", 30% "bilmirəm", 15% isə öz fikrini yazıb.

Universitetimizin tələbələri arasında keçirilən bu sorğuda tələbələrin fikirlərini öyrənmək çox maraqlı oldu. Sorğuda iştirak edən bütün tələbələrə təşəkkürümüzü bildiririk.

## "DÜNYA" MƏKTƏBİ HAQQINDA BUKLET




"Dünya" məktəbi haqqında rəngli buklet çap olunmuşdur. Bukletdəki fotolarla müşayiət olunan geniş mətndə məktəbin yaranması və keçdiyi inkişaf yolu, tədrisin təşkili və qazanılmış uğurlar, maddi-texniki baza, Xarici dil departamenti, IB Diplom Proqramı, Şagird Elmi Araşdırmalar Mərkəzi, Monitorinq və Qiymətləndirmə Şöbəsi, məktəb-valideyn əlaqələri, beynəlxalq əlaqələr, həyata keçirilən layihələr və s. haqqında dolğun məlumat verilir. Bukletin mətninin müəllifi "Dünya" məktəbinin direktoru Mərufə Mədətli, rəssamı Mir Rafiq Əbdülrəhimov, dizayneri Yəmən Haşımovadır.

## İŞÇİ QRUPUNUN ÜZVLƏRİ İLƏ FİKİR MÜBADİLƏSİ

Yanvarın 16-da Sinam təşkilatının nümayəndələri Xəzər Universitetində olub, Maliyyə Nazirliyinin "Büdcə təşkilatları üçün maliyyə və mühasibatlıq hesabatları " layihəsi çərçivəsində universitetdə təşkil edilmiş işçi qrupunun üzvləri ilə fikir mübadiləsi apardılar. Görüşdə Tədris işləri üzrə prorektor Məhəmməd Nuriyev, İdarəetmə və tələbə işləri üzrə prorektor Rafiq Əhmədov iştirak etdilər.